Azərbaycan.- 2021.- 16 mart. S. 10.



# Tonqalçatma

**Bu, ilaxır çərşənbələr və Novruz bayramı axşamlarında tonqal üstündən hoppanma mərasimidir. Adətən, tonqal daha çox hər tərəfdən görünən bir yerdə yandırılır.**

O, alovlandıqca ocağın şərəfinə nəğmələr, alqışlar deyilir, odun müqəddəsliyi tərənnüm edilir. Tonqalın ətrafında müxtəlif oyunlarla əylənirlər. Böyükdən-kiçiyə hamı yeddi dəfə tonqalın üstündən hoppanır. Alov səngiyəndə ağsaqqal babalar da, ağbirçək nənələr də odun üstündən atlayır, bələkdə olan körpəni tonqalın üstündən keçirirlər ki, çillədə qalmasın. İnama görə, bununla da ilin ağrı-acısı, uğursuzluğu oda düşüb yanır. Tonqalın üstündən hoppanarkən nəğmələr oxuyurlar:

Ağırlığım-uğurluğum odlara,
Yazda mənlə hoppanmayan yadlara.
Ağırlığım od olsun,
Odda yanan yad olsun.
Yaddan yad olar,
Qohumdan dad olar.
Qohum qohumdur
Yamanı da canımdır.
Aydan arı camalım,
Sudan duru camalım.
Alovdan atlanmaq gərək,
Cəfaya qatlanmaq gərək.
Oddan aman olmaz
Yaddan qanan olmaz.

***

Dədəm gəlsin, saz gəlsin,
Oylağımıza yaz gəlsin.
Qoşqu deyib heyləsin,
Bahar sözü söyləsin.
Bahara avaz gərək,
Avaza yaz gərək.
Taxılsın saza novruzgülü,
Kəsilsin yamanın dili.
Anlamazı dədəm andırsın,
Doğru yolu qandırsın,
Ağ saqqalım işıqdır,
Bahara yaraşıqdır.
Ağırlığım-uğurluğum odlara,
Yazda mənlə hoppanmayan yadlara.